# The Interview Times.

Buraxılış No.2 | Fevral, 2022 | Pulsuz


# Mimina Javadova




## Biography

*Mimina Cavadova, hal-hazırda Google şirkətinin nəznində YouTube-da çalışır. Bundan öncə o, 3 il Google şirkətində fərqli komandalarda işləyib. Mimina, Google şirkətində işləyən ilk ADA məzunudur. Bakalavr təhsilini ADA Universitetində alıb, orta təhsilini isə 160 nömrəli klassik gimnaziyada, qırmızı şəhadətnamə ilə bitirib. Evlidir və hal hazırda İrlandiyada Dublin şəhərində yaşayır.*

**"Adım Mimina Cavadova. Ancaq mən Gürcü qızı deyiləm". Hələ də bu problemlə üzləşirsən?**

- İnanırsız ki, elə bu gün taksidə sürücü məndən soruşdu ki, "Mimino" filminə baxmısanmı, müsbət cavabı aldıqdan sonra dedi ki, Gürcüstanlı deyilsiz? (gülür). Hələ də bu sualı mənə verirlər, hətta, Polşada da. Adıma görə məktəb vaxtından hamı birbaşa fikirləşirdi ki, mən gürcü azərbaycanlılardanam. Lakin, bunun adıma heç bir aidiyyatı yoxdur. Mənim nənəmin adı Elmiradır və hami ona Mimi deyirdi və anam ondan irəli gələrək mənə belə bir ad fikirləşdi. Bu günə qədər belə bir adda insan eşitməmişəm.

**Google-a gedən həyat yolunun maraqlı bir tarixçəsi var. Səhv etmirəmsə ilk intervyudan sonra vakansiya bağlanıb və düz 1 ildən sonra sənə geri dönüş ediblər. Daha ətraflı danışa bilərsənmi bu barədə?**

- 2015-ci ilin axırı "Google" şirkəti ADA-ya təqdimat ilə gəlmişdi və həmin ərəfədə ilk müsabiqəni keçdim. Sənədlərin göndərilməsini xahiş etdilər, amma 2016-cı ilin yayına qədər heç bir xəbər çıxmadı. Mən artıq ADA-nı bitirdim və yay aylarının birində məlumat verdilər ki, artıq vakansiya bağlandı və əgər bir dəyişiklik baş versə mənə xəbər edəcəklər. Sözün düzü mən bunu şablon bir cavab kimi qəbul etdim və onların sözünə inanmadım (gülür). Və buna görə ümidimi bu işə çox bağlamadım və universiteti bitirəndən sonra başqa şirkətdə çalışmağa başladım. "Google"-dan öncə 2 şirkətdə çalışdım. 2017ci ilin yanvar ayında elektron poçtuma e-mail gəldi ki, mən müraciət edən vəzifəyə vakansiya açılıb və məni müsabiqəyə dəvət etdilər. Müsabiqə prosesi çox uzun və mürəkkəb oldu, hətta bir gündə 3 müsabiqədən keçdim. Ən maraqlısı da odur ki, belə bir problem ilə təkcə mən rastlaşmışam, bəzi həmkarlarım 2 ay ərzində işə düzəliblər, ancaq məndə bu proses 2 ilə yaxın çəkdi.

**Google və Youtube, ilk təəssüratda hardasa eyni və ya oxşar şirkətlər kimi bir fikir beyində formalaşır. Reallıqda nə qədər oxşar və fərqlidirlər?**

- Əslində bilirsən, kənardan iki fərqli şirkət kimi görsənsə də, mənim üçün elə də böyük bir dəyişiklik olmadı, çünki "Youtube" özü "Google"-ın bir hissəsidir, ona görə də stajım dəyişmədi. İşdəki mühit də eynidi, məsələn, bizdə boulinq, masaj və istirahət otaqları var harada ki, biz iş günü ərzində vaxtımızı keçirə bilərik. Lakin, bunun həm müsbət həm də mənfi tərəfləri var: bir tərəfdən işdə böyük maneəçilik yaradır və işçinin fikrini dağıdır. İşdə əsas tələb olunan odur ki, işçi öz işini vaxtında təhvil versin. Ancaq, digər tərəfdən rahat və sərbəst iş mühiti insana daha müsbət təsir edir.

**Bir zamanlar bir tələbə kimi Google və Youtube-dan istifadə edirdin, ancaq daha sonra hər iki şirkətin əməkdaşı oldun. Əməkdaş kimi hər iki platformadan istifadə necə hissdir?**

- Məhz Youtube barədə deyə bilərəm ki, işdən kənar vaxtımda çalışıram bu platformanı istifadə edim. Hər gün evə gedib, hər hansı bir videoya baxıram və seçimim əksər vaxtlar "Youtube" üzərində videolara baxmaqdan ibarət olur. "Google" böyük şirkət olduğu üçün rəqibi demək olar ki yoxdur. Məsələn pandemiya dövründə virtual işçi qrup iclaslarımız olanda və ya işdən kənar hər hansı bir görüşlərdə, həmişə üstunlüyü "Google Meet"-ə verirdim və "Zoom" istifadəsinin tərəfdaşı deyildim. Öz şirkətimə loyal olmağa çalışırdım və kiçik də olsa öz töhfəmi görürdüm (gülür).

**Mimina və Nardarandakı bağ evi. Aranızdakı bağı bizimlə bölüşə bilərsənmi?**

- Hal hazırda Polşada yaşayıram və imkan olan kimi Bakıya gəlib ailəmi görürəm. Ancaq, uşaqlığımı yada salmaq istəyəndə Nardarandakı bağımız ağlıma gəlir. Uşaqlığımın ən yaxşı vaxtlarımı orada keçirmişəm, mənim ad günüm yayda olduğuna görə onu da həmişə bağda keçirirdik. Ailəmiz həmin bağda toplanırdı və hər gün çox maraqlı və şən keçirdi. Bir ay öncə Bakıda idim və bağımıza getdim və oradakı hər bir detal mənə gözəl



xatirələr və nostalji hisslər bəxş edirdi. 15 yaşıma qədər o bağda çox vaxt keçirmişəm və 10-11 yaş dövrü ilə bağlı çox gözəl xatirələrim var.

**Necə etmək olar ki, Youtube-da videoya baxarkən ekrana reklam çıxmasın?**

- (gülür). Onun bir həlli var, ancaq bildiyim qədərilə Azərbaycanda həmin funksiya hələki işləmir. Premium, pullu bir xidmətdir, hansı ki, istifadəçiyə reklam görsətmir. Aylıq ödəniş təxminən 10-15 avro arası olur.

**Həm "Google", həm də Youtube-da ən çox axtarılan 3 şey nədir?**

- Özüm əslində dəqiq bilmirəm, lakin, "Google Trends" adlı platformada bu barədə məlumat verilir. Fikrimcə, top 3 trend COVİD-19, siyasət və yeni il (Christmas) barədə olmalıdır.

**"Google" və Youtube axtarış vasitələri. Hansının "backend"-i daha mürəkkəbdir İT baxımından?**

- Mən özümdə bunu bilmək istəyərdim(gülür). Amma məncə mən bunu bilməyəcəm. Gəl deyək ki, ikisidə eyni cür mürəkkəbdi.

**Hazırda ailə həyatı qurmusan və yoldaşınla "Google"-da elə ilk iş günündə tanış olmusan. Həmin günü necə xatırlayırsan?**

-Düzdü (gülür). Əslində həmin günü çox pis xatırlayıram, çünki mən təzə işə çıxan günü çox həyacanlı oluram və çox məqamları unuduram. Hətta, vacib hissələri telefonda not götürürəm. İlk həftə ofisdəki otaqları qarışdırırdım, ancaq növbəti həftələrdə həmin həyacan yavaş yavaş keçirdi. İkinci gündə yoldaşım mənə işlə bağlı kömək etdi və bir birimizi tanıdıq.

**Google və Youtube kimi dünyanın nəhəng şirkətlərində işləmisən. Bunun üçün ADA-da ən çox nəyə və kimə borclusan? Ancaq gəl spesifik olaq.**

- Ən əsas faktorlardan biri, dərslərimizin praktiki olması mənə böyük biliklər verdi. Mən məktəbdə belə bir yanaşma görməmişdim, düşünürəm ki, başqa universitetlərdə də hələ ki, belə bir yanaşma yoxdur. Müəllim heyətindən isə mən bir insan seçə bilmərəm, çünki bütün müəllimlər bizə maksimal dərəcədə bilik və bacarıqları öyrədirdilər. Məsələn, müsabiqə zamanı mənə test vermişdilər və sualların düz və ya səhv cavabı yox idi və mən sadəcə öz cavabımı izah edib istinad etməli idim. Həmin vaxt mənə ADA-da qazandığım bilik və təcrübə çox kömək oldu.

**Azərbaycanda ən qaymaq iş yerlərində ADA-nın BBA 2016 məzunları işləyirlər. Səncə bunun əsas səbəbi nədir?**

- Məncə bunun əsas səbəblərindən biri odur ki, biz az idik (ümumilikdə 60 nəfər). Amma, mən əminəm ki, indi də ADA məzunlarını digər universitet məzunları ilə bilik cəhətdən müqayisə etsək, keyfiyyətdə daha üstün olduğunu görərik. Hətta, bizim ilk bakalavr məzun olmağımız riskli bir faktor idi. İş bazarında bizi tanımırdılar və biz özümüzü təsdiq etməli idik. Hal hazırda hamı ADA-nın tələbələrini tanıyır və işə götürmək istəyir.

**ADA-nın XİN-dəki korpusu və yeni kampus. Hansı günlər üçün daha çox darıxırsan?**

- Mən ADA-ya 2017ci ildə qəbul olub ingilis dili imtahanını keçib BA2016-lara qoşuldum. Ona görə mən XİN-dəki korpusda çox az vaxt keçirtmişəm və tədris ilin ilk vaxtları idi deyə həmin dövr mənim üçün çox həyəcanlı keçib. Bütün dərslərin birdən birə ingilis dilində keçirilməsi mənim üçün çox çətin idi. BA2016-lara qoşulanda məndən gözlənti o idi ki, mən artıq akademik ingilis dili proqramını bilirəm. Əlbəttə ki, mən ingilis dilini bilirdim, amma birbaşa esse yazmağa hazır deyildim. Lakin, öz üzərimdə işləyirdim və sonra mənim qiymətim, səhv etmirəmsə, sinifdə ən yüksək çıxmışdı. Amma, ağlımda yenə bir fikir var idi ki, mən heç nə bilmirəm, qrup yoldaşlarım bir il hazırlaşıb və onlar daha hazırlıqlıdılar və mən belə oxuya bilməcəyəm. Hətta, hər şey o qədər çətin və yeni gəlirdi ki, dəfələrlə evə gəlib ağlamışam (gülür). İstəyirdim BA2017-lərə qayıdım və mənə bütün məqamları izah etsinlər, amma mən situasiyanı qəbul edib, çətinliklərə və vaxt limitinə baxmayaraq, gözəl nəticələr əldə etdim.



**“Google”-da işləmək istəyən biri üçün 3 məsləhətin nə olardı? (Sofiya Sayadzadə, SITE 2021)**

- Ən birincisi fikirləşmək: Nəyə görə məhz “Google”, bu hətta müsabiqədə də soruşula bilər. “Google” dünyaca tanınan bir şirkət olduğu üçün yox, onun hansı spesifik xüsusiyyətlərinə görə. İkincisi, hər zaman öz üzərində işləməyə və yeni bilikləri öyrənməyə hazır olmaq. “Google”-da qabağa getmək istəyirsənsə, komandadan komandaya keçməyi və uyğunlaşmağı bacarmalısan. Üçüncüsü, həm müsabiqəyə, həm də işə öncədən hazırlaşmaq vacib məqamdır. “Google”-ın müxtəlif fəaliyyətlərindən məlumatlı olmaq lazımdır. Məsələn, “Google Ads” hal hazırda nə üzərində işləyir, onun rəqibləri kimlərdir və onun üstünlükləri nələrdir. Hazırlaşmaq üçün, Google for students saytı tövsiyə edə bilərəm. Orada yerləşdirilən vakansiya barədə ətraflı məlumat almaq, “Google”-ın fərqli istiqamətləri üzrə araşdırma aparmaq imkanı var. “Google” və ona aid olan bütün şirkətlərinin iş elanlarını isə careers.google.com saytında izləmək olar, orada müxtəlif təcrübə proqramları və iş vakansiyaları təqdim olunur. Əsas müsabiqədə sərbəst olmağı tövsiyə edirəm.

**Öncə Google, indi Youtube, gələcəkdə bəs hara? Facebook?**

- (gülür). Bilmirəm, çünki indiki komandaya bir ildən azdır ki qoşulmuşam və iş çox maraqlıdır. Hələki burada işləmək istəyirəm. İnsan özü hiss edir ki, nə zaman yeni komandaya keçmək vaxtıdır və məndə bu hiss hələ ki yaranmayıb.

*Sualları hazırladı və müsahibəni götürdü:*

*El **P**residente*

# QR-codu scan et və qəzetin növbəti buraxılışında yayımlan!

İdeya müəllifi: El Presidente
Dizayner: Nathan Kamanga
Redaktor: Fidan Namazova
Fullstack developer: Niyazi Babayev
Vergi məsləhətçisi: Suğra Əsgərova
PR komandası: Alejandra Garcia Duran
Aynura Abbasova
Toğrul Tağıyev
Cavid Ələkbərov

*Scan edənlər arasından 1 nəfər “randomly” seçilərək qəzetin növbəti buraxılışında özü haqqında məlumat (1 ədəd şəkil, bio və ya uğur hekayəsi) yerləşdirmək imkanı əldə edəcək

The Interview Times.